Övladlığa götürmə, qəyyumluq (himayə) heç də həmişə valideyn himayəsindən məhrum olmuş uşaqların tərbiyə üçün ailəyə yerləşdirilməsinin yeganə üsulu olmamışdır. Ev qayğısına ehtiyac duyan baxımsız uşaqların, xəstə və digər şəxslərin şəxsi ailələrə yerləşdirilməsi əvvəllər də həyata keçirilmişdir. Belə yerləşdirmənin tarixi kökləri II Yekaterinanın çarlığı dövrünə gedib çıxır və patronaj (hamilik) adlandırılırdı (Nechayeva, 1993: 310).

Tərbiyə edilmək üçün patronaja çox vaxt körpə uşaqlar – uşaq evlərində tərbiyə olunanlar verilirdi. Bununla bərabər, himayədar ailəyə həmçinin yetkinlik yaşına çatmamış böyük yaşlı uşaqlar da düşürdü. Onları, adətən, "beş manatlıq yardıma" görə "kasıb sakinlər" özlərinə qəbul edirdi, çünki təmin edilmiş şəxslər övladlığa götürməyə üstünlük verirdilər.

Uşağı patronajlığa qəbul etmiş ailəyə miqdarına görə müxtəlif olan müavinətlər ödənilirdi. Əgər tərbiyə üçün ailəyə kiçik yaşlı uşaqlar qəbul edilirdisə, bu müavinətin məbləği daha böyük olurdu, çünki onlardan heç bir kömək gözləmək lazım gəlmirdi. Himayəyə götürülən uşaq yaşlı olduqda bu müavinətin məbləği azalırdı, 12-14 yaşlı uşaqlara verilən müavinətin məbləği isə həddsiz az olur və ya, ümumiyyətlə, bu müavinətin verilməsi kəsilirdi. Beləliklə, uşaqların ailəyə yerləşdirilməsinin bu forması "xalq peşəsi" xarakteri alırdı, yəni uşaq ailəyə "kasıbdarlığa" görə himayəyə verilirdi (7).

Yetkinlik yaşına çatmamış uşaqların ailədə patronaja verilməsi quberniya idarəsi və tərbiyə üçün uşağı öz ailəsinə qəbul edən şəxslər arasında müəyyən edilən şərtlərlə həyata keçirilirdi. Himayəyə götürülənin vəziyyətini yüngülləşdirmək üçün onun həyat şəraitinə, tərbiyəçinin üzərinə götürdüyü vəzifələrin yerinə yetirilməsinə nəzarət edilirdi. Bu məqsədlə ölkə dairələrə bölünür və orada nəzarət, adətən, tibb təhsilli şəxsə həvalə olunurdu (Dəmirçiyeva, 2020: 552).

1917-ci ilin oktyabrından sonra patronajdan səhiyyə orqanları istifadə etməyə başladılar, ailə patronatı isə uşaqların yerləşdirilməsi üsulu kimi dövlət tərəfindən tanınmadı. O, fərdi ailələrin dağılması ilə birlikdə tarixin arxivinə verildi. Lakin valideyn himayəsindən məhrum olan uşaqların və yetim uşaqların yerləşdirilməsi problemi kəskinləşdiyindən, daha hiss ediləcək dərəcəyə çevrildiyindən 20-ci illərin ortalarında patronaj ideyasına həm də artıq südəmər yaşlı uşaqlar üçün yenidən qayıdıldı. Bunun üçün Ümumittifaq Mərkəzi İcraiyyə Komitəsi (ÜMİK) və RSFSR Xalq Komissar-

ları Sovetinin (XKS) 28 may 1928-ci il tarixli "Uşaq evlərinin yetirmələrinin və digər yetkinlik yaşına çatmamış şəxslərin şəhər və qəsəbələrdə zəhmətkeşlərə tərbiyə üçün verilməsi qaydası və şərtləri haqqında" Qərarı qəbul edildi. Qərar yetim uşaqların himayədar ailəyə yazılı müqavilə əsasında verilməsinə həsr edilmişdi (Nechayeva, 1998: 310).

Müqavilədə aşağıdakılar nəzərdə tutulmalı idi:

- yetkinlik yaşına çatmamış şəxsi öz ailəsinə qəbul edən şəxsin vəzifələri (uşağı digər ailə üzvləri ilə bərabər şəkildə saxlamaq, ona təhsil və "siyasi inkişaf" imkanını vermək);
- müqaviləyə xitam verildikdən sonra himayəyə götürülənə yardımın forması və miqdarı;
- müqavilə münasibətlərinin saxlanma müddəti – ya yetkinlik yaşına çatana qədər, ya da müəyyən müddətə qədər, yalnız üç ildən az olmayaraq;
- müqavilənin müəyyən edilmiş müddətdən daha erkən pozulması qaydası.

Hələ patronat adlandırılmayan bu müqavilənin xarakterik əlaməti əvəzli (yəni haqqa görə) olması idi (Dəmirçiyeva, 2020: 507-508).

Hazırkı dövrümüzdə isə himayədar ailə institutunun mahiyyəti tamamilə fərqlidir. Burada əsas məqsəd, uşağın himayədar ailə tərəfindən saxlanılmasına görə haqq almaqdan ibarət deyildir (8).

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 145-1.1.1-ci maddəsinə əsasən, himayədar valideyn uşağın saxlanılmasına görə "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilən aylıq və birdəfəlik müavinəti almaq hüququna malikdir (9).

"Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli Qanununa 30 may 2023-cü il tarixli 881-VIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə edilmiş əlavəyə görə, həmin qanunda himayədar ailəyə verilmiş uşaqlar üçün 2 növ müavinət növü müəyyən edilmişdir: 1) himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə verilən aylıq müavinət; 2) himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün verilən birdəfəlik müavinət.

Həmin müavinətlərin məbləği "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2013-cü il tarixli 973 nömrəli Fərmanına edilmiş 12 iyul 2023-cü il tarixli 2208 nömrəli Fərmanla edilmiş əlavələrdə müəyyənləşdirilmişdir (Dəmirçiyeva, 2020: 552).

Belə ki, himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə müavinət aşağıdakı məbləğlərdə müəyyən edilmişdir:

1. Himayədar ailəyə verilmiş uşağa (18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqlar istisna olmaqla) görə: 0–6 yaş arası uşağa görə – 355 manat, 7–13 yaş arası uşağa görə – 375 manat, 14–18 yaş arası uşağa görə – 395 manat;

2. Himayədar ailəyə verilmiş 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağa görə: 0–6 yaş arası uşağa görə – 395 manat, 7–13 yaş arası uşağa görə – 415 manat, 14–18 yaş arası uşağa görə – 435 manat.

Himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün müavinət isə 200 manat məbləğində müəyyən edilmişdir. Bu müavinət hər rübdə bir dəfə olmaqla ödənilir (10).

Qeyd olunan müavinətlər bilavasitə himayədar ailəyə verilən uşaqlar üçün müəyyən edilmişdir. Təəssüf ki, qanunvericiliyimizdə himayədar ailəyə verilən uşaqların tərbiyə edilməsinə görə ayrıca olaraq himayədar valideynin özünün haqq alması hüququnu müəyyən edən hər hansı norma müəyyən edilməmişdir (11; 12).

## Nəticə

Halbuki yuxarıda da qeyd olunduğu kimi, keçmiş dövrlərdə himayədar ailə institutu mütləq olaraq əvəzli, himayədar valideyn üçün bir "iş yeri" hesab edilirdi. Heç də təsadüfi deyildir ki, qeyd olunan bu məbləğlər günümüzdə uşağın bütün tələbatlarını tam formada ödəməyə kifayət etmir. Belə ki, insan cəmiyyətində daim yaşayış standartları dəyişir, yeni istehsal amilləri formalaşır, maddi nemətlərə olan tələbatlar dəyişir. Bir uşağın gündəlik yaşam, təhsil, istirahət və geyim xərcləri heç də qeyd olunan məbləğlərlə tam formada ödənilə bilməz. Belə olan halda, himayədar valideynin özü əlavə olaraq bu xərcləri qarşılamaq məcburiyyətində qalır. Hətta ək-

sinə, himayədar valideyn belə olan halda uşağa ödənilən həmin məbləğləri ixtisara salaraq ailəni dolandırmağa çalışır və nəticə etibarilə uşağın tələbatlarının ödənilməsi yarımçıq qalır.

Odur ki məhz bu xüsusiyyət himayədar valideyn olmaq istəyən şəxsləri bir növ bu institutdan "uzaqlaşdırır".

Təklif edirik ki, qanunvericiliyimizdə himayədar ailəyə verilmiş uşaqların tərbiyə edilməsinə görə himayədar valideynlərin özünün haqq almaq hüququ müəyyənləşdirilsin. Belə olan halda, himayədar ailə institutu inkişaf edəcəkdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyası. https://e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. https://e-qanun.az/framework/46946
3. Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramının (2006-2015-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 mart 2006-cı il tarixli 1386 nömrəli Sərəncamı. https://e-qanun.az/framework/11537
4. Dəmirçiyeva, M. D. (2020). Azərbaycan Respublikasının Ailə hüququ. Bakı: "Zərdabi Nəşr" MMC, 552 s.
5. Vishnyakova, A. V. (2004). Kommentariy k semeynomu kodeksu Rossiyskoy Federatsii. Moskva: Yurid. firma «Kontrakt», s. 227.
6. Nechayeva, A. M. (1998). Semeynoye pravo. Kurs lektsii. Moskva: Yurist, s. 310.
7. SU RSFSR. (1928). № 64, 462 s.
8. Azərbaycandakı himayədar ailələr... https://modern.az/az/news/27461
9. "Sosial müvainətlər haqqında" Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli Qanunu. https://e-qanun.az/framework/11508#_edn9
10. "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2013-cü il tarixli 973 nömrəli Fərmanı. https://e-qanun.az/framework/26488#_edn25
11. https://e-qanun.az/framework/46946
12. https://platform.who.int/docs/default-source/mca-documents/policy-documents/law

Göndərilib: 13.05.2024 Qəbul edilib: 11.06.2024

DOI: https://doi.org/10.36719/2663-4619/104/20-24

**Şöhrət Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
sohret.nesirova24@gmail.com
https://orcid.org/.0009-0006-6553-6385

# ABDULLA ŞAİQİN MƏNZUM HEKAYƏLƏRİNİN FOLKLOR QAYNAĞI

**Xülasə**

Uşaq ədəbiyyatının inkişaf tarixində Abdulla Şaiqin xüsusi yeri və məqamı vardır. Yüksək sənət intelleksiyası sərgiləyən poetik örnəkləri yüz ildən çoxdur ki, uşaqların mənəvi dünyasının ifadə örnəyi olaraq dillər əzbərinə çevrilmişdir. Məzmun mükəmməlliyi, struktur səciyyəsi və bütünlükdə yeniyetmə və cocuq təsəvvürünü formalaşdırmaq üçün müstəsna əhəmiyyəti ilə diqqət önünə gəlir. Belə uğurlu alınmanın ana qaynağını isə bir istiqamətdə xalqın zəngin yaradıcılığından bəhrələnmə təşkil edir. Mənzum hekayələri bütün parametrlərdə görkəmli ədibin yaradıcı istedadının göstəricisidir və uşaq dünyası mütəxəssisi olaraq nümunəyə çevrilən əvəzsiz örnəklərdir.

XIX əsrin ortalarından başlayan hərəkətlilik milli müəyyənliyin və özünüifadənin kodu olaraq ədəbi-mədəni düşüncənin müxtəlif istiqamətlərdə özünü nümayişi ilə diqqət önünə gəlir. Milli mətbuatın yaranışı, yeni tipli məktəblər, əlifba məsələsi, qadın təhsili, dərslik, məktəb problemləri və s. bütünlükdə cəmiyyətin qarşısında duran və həllini gözləyən məsələlər idi. Uşaq ədəbiyyatı sahəsində olanlar gənc nəslin bir şəxsiyyət kimi formalaşdırılması və mütərəqqi mühitin yaradılması istəyindən irəli gəlirdi. S. Ə. Şirvani, H. Zərdabi, C. Ünsizadə, M. Şahtaxtlı, M. Mahmudbəyov, R. Əfəndiyev, A.Səhhət, M. Ə. Sabir, M. Hadi, Ə. Müznib, Ə. Ülvi, C. A. Şirvani, Ə.Nəzmi, M. T. Sidqi, S. Mənsur, Ə. Dai və s. kimi fədakar ziyalı nəslinin fəaliyyəti bu aspektdə bir əvəzsizlik sərgiləyir. "Rəhbər", "Dəbistan", "Məktəb" kimi mətbuat orqanlarının gördüyü böyük işlər milli hərəkətliliyin uşaq ədəbiyyatı, məktəb, təhsil sahəsində funksional rolunu faktlaşdırır.

***Açar sözlər:*** *Abdulla Şaiq, mənzum hekayələr, "Tıq-tıq xanım", "Yaxşı arxa", "Tülkü həccə gedir", folklor, yanıltmac, tapmaca*

**Shohrat Mammadova**
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Philology
sohret.nesirova24@gmail.com
https://orcid.org/.0009-0006-6553-6385

## The folklore source of Abdulla Shaig's verse stories

**Abstract**

Abdulla Shaig has a special place and moment in the history of development of children's literature. Poetic examples exhibiting high artistic intelligence have been memorized in languages for more than a hundred years as an example of the expression of the spiritual world of children. It stands out for its excellence of content, structural character and its exceptional importance for shaping the imagination of teenagers and children as a whole. The main source of this success is benefiting from the rich creativity of the people in one direction. Manzum's stories are unparalleled examples that exemplify the creative talent of a prominent writer in all settings and as an expert in the world of children.

The mobility that began in the middle of the 19th century comes to the fore with the manifestation of literary and cultural thought in various directions as a code of national identity and self-expression. The emergence of a national press, new type of schools, the alphabet issue, women's education, textbooks, school problems, etc. were the problems facing society as a whole

and waiting to be solved. The issues in the field of children's literature arose from the desire to form a personality of the young generation and create a progressive environment. S. A. Shirvani, H. Zardabi, J. Unsizade, M.Shahtakhtli, M. Mahmudbeyov, R. Efendiyev, A. Sahhat, M. A. Sabir, M. Hadi, A. Muznib, A. Ulvi, J. A. Shirvani, A. Nazmi, M. T. Sidgi, S. Mansur, A. Dai, etc. The activity of a generation of selfless intellectuals is indispensable in this aspect. The great work done by press organizations such as "Rahbar", "Dabistan", "Maktab" shows the functional role of national mobility in the field of children's literature, school and education.

***Keywords:*** *Abdulla Shaig, verse stories, "Tik-Tik Khanum", "Good back", "Fox goes on a pilgrimage", folklore, illusion, puzzle*

## Giriş

Abdulla Şaiqin zəngin yaradıcılığında mühüm bir hissəni uşaqlar üçün yazdığı rəngarəng bədii örnəklər təşkil edir. Müxtəlif mövzularda yazılan bu örnəklər uşaq dünyasını, onun romantik duyğusal məqamlarını, stixial xarakterinə dayanan polifoniyanı əhatələmək baxımından müstəsnalıq təşkil edir. “Aslan, qurd və tülkü”, “Qərənfil”, “Bənövşə”, “Kür çayı”, “Xoruz”, “Keçi”, “Layla”, “Yetim cücə”, “Səhər”, “Təpəl Kəlim”, “Yeni köməkçi”, “Ana yurdu”, “Zanbaq”, “Bülbül”, “Qızıl-gül”, “Vətən nəğməsi” və s. artıq yüz ildən çoxdur ki, körpəlik, cocuqluq, yeniyetməlik dövrünün ən mükəmməl nümunəsi olaraq dillər əzbərinə çevrilmişdir. Maraqlı orasıdır ki, yüz ildən çox zaman ərzində bir neçə nəslin düşüncəsində oturuşmuş bu nümunələr eyni ahəng və sevgi ilə yaddaşlara öz izini qoymaqla spesifikləşir. Həm də ömrün hansı çağı olmasından asılı olmayaraq, unudulmazlıqla diqqət önünə gəlir. Uşaq qəlbinin mütəxəssisi olan A. Şaiq ədəbiyyat tarixinə, eləcə də gənc nəslin mənəvi dünyasına öz adını bu ölməz nümunələrlə yazmışdır. Mənzum hekayələri də həmin sevginin və sayğının nəticəsi olaraq diqqət önünə gəlir (Xəlil, Əsgərli, 2011).

Ruhu və təbiəti etibarilə xalqın zəngin mədəniyyətinə, etnoqrafik əsrarəngizliyinə bağlanan bu böyük sənətkar elat mədəniyyətini, onun ruhani və mənəvi düşüncəsini bütün aspektləri ilə özündə ehtiva edə bilmək gücündə olan tək-tək şəxsiyyətlərdəndir. Tərbiyə aldığı ailə, formalaşdığı mühit, dağ-aran köçləri, qaynar məişət bütün aspektləri ilə onun yaradıcı istedadını müxtəlif mövzularda yazdığı əsərlərində özünü nümayiş etdirmişdir. “Peşəkar müəllim, öz fəallığı ilə seçilən maarif xadimi Abdulla Şaiq xalqının cəhalətdən xilas olmasına, uşaq və gənclərin öz dövrünə uyğun bir şəxsiyyət kimi yetişməsinə çalışmış, bu problemləri öz bədii əsərlərinin qüdrəti ilə əldə etməyə cəhd göstərmişdir” (Əfəndiyev, 1992: 139). Həyatının ayrı-ayrı dönəmlərində yazdığı bədii nümunələr rəngarəng aspektlərdə folklordan gələnlər timsalında uşaqların düşüncəsini, hiss və duyğularını, həyati bacarıqlarını əhatələmək və aşılamaq məqsədi daşıyır.

“Tıq-tıq xanım”, “Tülkü həccə gedir”, “Ovçu Məstan”, “Zəhmət və Zinət” hər biri mətn konstruksiyası, metamodel səviyyəsində əhatələdiyi məzmun müstəvisində təlqin, tərbiyə, bilgi vermə və şəxsiyyət formalaşdırma kimi gərəkli dəyərlərin kutsallığına yüklənməyə köklənir (Suxomlinski, 1979).

Gəlin, sizə uşaqlar,
söyləyim bir hekayət:
Dozanqurdu edirdi,
yalqızlıqdan şikayət.
Soğan qabıqlarından
bir çadra tikdi, şıq-şıq.
Fındıq qabıqlarından
çarıq geyindi, tıq-tıq (Səhhət, Şaiq, 2006: 274).

Göründüyü kimi, müəllifin mövzunu canlandırma texnologiyası xalqın zəngin yaradıcılığından gələnlər timsalında etnik özünüifadənin düşüncə kodu səviyyəsində əsaslı bir müəyyənliyə bağlanır. Nağıl təhkiyəsindən gələn modelləşmə bir istiqamətdə uşaq təsəvvüründə olanları əhatələmək məramı və məqsədi ilə spesifikləşir. “Gəlin, sizə uşaqlar, söyləyim bir hekayət” deyimi fonopoetik və morfopoetik axarı ilə sənətkar tərəfindən yüksək ustalıqla deyimin uğurlu çalarını tapmaq

istəyini və yaradıcı axtarışlarını sərgiləyir. Uşaqların özünəməxsus fantastik xarakterli düşüncələri və xalq dilinin, həm də düşüncəsinin spesifikliklə sıralanan məzmunu bütün parametrlərdə zənginliyə bağlanır (Məmmədov, Babayev, Salamoğlu, 1992).

Çobanla dozanqurdu arasında olan söhbət və deyilənlərin ümumi axarı obrazlaşdırma timsalında “Tıq-tıq xanım” adlanmasının məzmununda olanların nələrə bağlanmasını açıqlamaq xarakteri ilə spesifikləşir. Başına ətir vuran, özünə min cür bəzəklə zinət verən dozanqurdunun çobana dedikləri təkəbbürü, müştəbehliyi diqqət önünə gətirir. Çobanın “bağışla, qurban o şirin dilə, Tıq-tıq xanım, de görüm, hara gedirsən belə” söyləməsi sonrakı mərhələdə eyni tərzlə tülkü ilə qarşılaşmasında (söhbətində) təkrarlanır. Yoldaş axtarmaq düşüncəsi ilə yola çıxan Tıq-tıq xanıma tülkü mənim kimisi tapılmaz deyir və səni yalqız qoymaram deyə ona həyan olmağa çalışır. Çoban və tülküyə “səhv işlər etsəm, mənə münasibətin necə olar?” sualına cavabdan təşvişə düşüb qaçan Tıq-tıq xanım daha sonra siçanla söhbətləşir. “Saçı uzun Suray xanım, boyu uzun Buray xanım” deyiminin uşaqlar arasında dillər əzbərinə çevrilməsi şairin yaradıcı istedadının təzahürü olaraq ortaya çıxmışdır (Tahirli, 1991).

Tarap-turup atlılar,
Atları qanadlılar!
Xan evinə gedərsiz,
Siçan bəyə deyərsiz,
Saçı uzun Suray xanım,
Boyu uzun Buray xanım,
Düşübdü su çuxuruna (Səhhət, Şaiq, 2006: 274).

Xalqın zəngin şifahi yaradıcılığında mühüm bir hissəni uşaq nağılları tutur və bütün mahiyyəti ilə uşaq dünyasını ifadəyə yüklənir. “Abdulla Şaiqin mənzum nağıl və poemalarının ilk mənbəyi Azərbaycan şifahi xalq ədəbiyyatıdır” (Qafarlı, 2013: 173). Zəngin folklor mədəniyyəti, etnoqrafik düşüncənin metamodel səviyyəsində ortaya qoyduğu mənzərə bütünlükdə kulturoloji sistemin üfiqi və şaquli qatlarında boy göstərən axarın məzmununu açıqlayır. Yuxarıdakı nümunə bütün parametrlərdə xalq ədəbiyyatının ifadə üsullarını, uşaq düşüncəsində özünə yer alan spesifikanı, dil və məna harmoniyasını bir məram olaraq sıralayır (Vəliyev, 1989).

Bədii mətnin təsiredicilik funksiyası müxtəlif səviyyələrdə uşaq təsəvvürünə, maraq dairəsinin əhatələdiyi məzmuna yüklənir. Siçan və dozanqurdu (Tıq-tıq xanım) timsalında olan söhbətləşmə heyvanlar aləmi haqqında bilgi verməni səciyyələndirir. Ayrı-ayrı epizodlar səviyyəsində nəzərə çarpan məqamlar sonrakı dönəmlərin nümunələrində bir işləklik qazanmaqla təkrarlanır. Məsələn, mətn axarında digər bir epizoda diqqət yetirək:

– Əlini mənə, bəstərəcik!

– Yox, mən səndən küsdərəcik! (Səhhət, Şaiq, 2006: 280)

Siçan və Tıq-tıq xanım səviyyəsində olan epizodik məqam müqayisələrə, dostluq, yoldaşlıq timsalında olan münasibətlərin təlqin mənzərəsinə bağlanır.

“Tülkü həccə gedir”, “Yaxşı arxa”, “Ovçu Məstan”, “Zəhmət və Zinət” mənzum hekayətləri, eləcə də “Murad”, “Meşə gözətçisi” və s. nümunələrin hər biri mövzu rəngarəngliyi ilə ədəbiyyata, uşaq mənəviyyatının zənginləşməsinə əsas olmuşdur. Hər bir bədii nümunə öz duyğusal məzmunu, ifadə elədiyi məna qatı, sözün məna tutumu ilə əsaslı bir mükəmməlliyi özündə sərgiləməsi ilə diqqət önünə gəlir (Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası, 1998). “Azərbaycan uşaq ədəbiyyatının yaranıb formalaşmasında uşaq folkloru nümunələri mühüm rol oynamışdır. Uşaq folkloru nümunələri həmişə yazıçı və şairlərimizin diqqətini cəlb etmişdir. S. Ə. Şirvani, M.Ə.Sabir, A. Səhhət, A. Şaiq, S. S. Axundov və başqaları həm də öz əsərlərində uşaq folklorunun layla, oxşama, düzgü, nağıl və s. nümunələrindən istifadə etmiş, həm də bu səpkidə orijinal əsərlər yaratmışlar. Sonrakı dönəmdə C. Cabbarlı, S. Vurğun, A. Şaiq, M. Rzaquluzadə, M. Dilbazi, M.Seyidzadə və başqaları uşaq folkloru nümunələrindən ustalıqla istifadə etmişlər” (Əsgərli, 2023: 226). Yaratdıqları sənət abidələri ilə uşaq dünyasına səyahət etmiş, onların dürlü tərəflərini bir ecazkar mütəxəssis olaraq yüksək ustalıqla əks etdirməyə üstünlük vermişlər. A. Şaiq şeirləri,

mənzum hekayələri, yazışmaları və bir sənətkar kimi ədəbi-mədəni mühitdə formalaşdırdığı təsəvvürlə nümunəyə çevrilmişdir. Hər bir poetik örnəklə nəyisə çatdırmaq məramında və istəyində olmuşdur. Məsələn, "Tülkü həccə gedir" öz qaynağını xalq təsəvvüründə olanlardan almaqla orijinallıq sərgiləyir:

Tülkü qocalmış idi,
Şikardan qalmış idi,
Ov keçmirdi əlinə,
Ət dəymirdi dilinə.
Həftələrlə qalıb ac,
Dolanırdı yalavac (Səhhət, Şaiq, 2006: 281).

Xalq təsəvvüründə və uşaqların düşüncəsində hər bir obrazın özünəməxsus semantik işarələnməsi vardır. Tülkü də eynilə nağıllarımızda, lətifə və təmsillərimizdə maraq doğuracaq örnəklərlə qəlibləşmişdir. A. Şaiq bunlardan çıxış edərək orijinal bir uşaq ədəbiyyatı nümunəsi yaratmışdır. Mətn informasiyası situasiya daxili mənzərə səviyyəsində bir neçə istiqaməti şərtləndirir (Tahirli, 1991):

a) bədii nümunənin adında tülkünün formalaşdırdığı metaforik qat və onun reallıq mənzərəsi,
b) həccin xalq təsəvvüründəki anlamının məzmun mahiyyəti və tülkü timsalında olanlar,
c) uşaqlar səviyyəsində sənətkarın bilgi vermək üçün seçdiyi təqdimat üsulu,
ç) metafotik müstəvidə sərgilənən təsəvvürün tülkü və xoruz söhbətində sərgilədiyi mənzərə,
d) "xasiyyətimi dəyişmişəm" deyən tülkünün əməllərinin mahiyyətində duran hiyləgərlik və acgözlüyün törətdiyi acılar və s.

Bütün bunlar süjetli şeir müstəvisində bilgi verməyə, uşaqları həyat reallıqları fonunda tərbiyəyə yüklənir. "Xasiyyətimdir" deyə xalq təsəvvüründə özünə yer almış "əqrəb" timsalında deyilənlərə həssaslıq nümayiş etdirir. Eləcə də el arasında ilanlarla bağlı söylənən "ağına da lənət, qarasına da" deyiminin informasiya yükünə dayanan təfsilata diqqəti yönəldir. Qocalmış tülkünün hekayəti elə toplum təsəvvüründəki "qoca tülkü" deyimindəki alt qatı, metaforik məzmunu işarələyir. Etdiklərindən peşman kimi görünən tülkünün mahiyyəti əhvalat-nağılın sonunda bütün paradiqması ilə açılır (Məmmədova, 2014).

İtilədi dişini,
atdı təsbeh, əbanı,
Sarığı, həm əsanı.
baxdı o yan, bu yana,
Düz atıldı meydana.
yırğalandı quyruğu,
Boğdu on beş toyuğu (Səhhət, Şaiq, 2006: 280).

A. Şaiq yaradıcılığı müxtəlif formalarda uşaqların duyğu və düşüncələrini, maraqlarını, fantastik təsəvvürlərini əhatələməyə köklənir. Ayrı-ayrı epizodların məna yükü, hadisə və əhvalatları canlandırma texnologiyası etnik yaddaşın mif, əfsanə, rəvayət, nağıl qatında olanlardan çıxış etməklə həyat bilgilərini genişləndirməyə, müxtəlif situasiyalarda uğurlu nəticəni hesablaya bilməyə yüklənir. Məsələn, "Yaxşı arxa" nağıl-hekayəsinin sərgilədiyi məzmun qatı xalq yaddaşındakı təsəvvürə və onun təlqin üsulunun tapılmasına bağlanır. Hacıleylək, tülkü və qarğa timsalında baş verənlər çeşidli tərəfləri ilə uşaq təsəvvüründə olanların təkcə məzmun qatını əhatələmir, həm də bədii-estetik formulası ilə diqqətçəkici təsəvvür formalaşdırır (Məmmədova, 2016).

"Günlərin bir günündə, qalın meşə içində" bütün parametrlərdə təhkiyə tipi olma xüsusiyyəti ilə nağıllardan gələn təqdimata yüklənir. Ümumiyyətlə, A. Şaiqin yüksək sənətkarlıq intelleksiyasını əhatələyən mənzum hekayələri öz formulası və əksetdirmə texnologiyası ilə nağıl təhkiyəsinə dayanır.

Bir ac tülkü olurdu,
Acından qovrulurdu.
Qalmayırdı dağ, dərə,
Baş çəkirdi hər yerə (Səhhət, Şaiq, 2006: 288).

Tülkünün aclıqdan yaxa qurtarmaq üçün çinar başında yuva salmış leyləyə dedikləri, əlinə mişar alıb ona bu ağacı kəsmək istədiyini söyləməsi, əks təqdirdə, balalarının birini verməsi və s. məsələlər diqqətçəkici bir tərzdə özünə yer alır. Qarğanın işə qarışması və söylədikləri müqabilində vəziyyətdən çıxış yolu tapan leylək ona öz minnətdarlığını bildirir (Namazov, 2007).

Qarğaya münasibətdə isə tülküdə bir qisas, intiqam istəyi yaranır. Lakin bütün hiyləgərliyi ilə yüz oyun çıxaran tülkü axırda yenə də əməlinin qurbanı olur. Mənzum hekayənin sonluq formulası "tülkü alışdı, yandı, öz işindən utandı" ilə yazıçı tipik bir sonluğu, aqibəti diqqət önünə gətirir (Mahmud, 1992).

## Nəticə

Abdulla Şaiqin yaradıcılığının ana axarını müəyyənləşdirən uşaqlar üçün yaratdığı bədii örnəklər bütün parametrlərdə xalq düşüncəsində qəlibləşmiş modellərə yüklənir. Tərbiyəvi məzmunu və təsiredicilik funksiyası ilə əfsanə, rəvayət, nağıl, lətifə, təmsil, layla, oxşama, yanıltmac, uşaq oyunları timsalında dəyərləri, bacarıq və vərdişləri aşılamağa yüklənir. Mənzum hekayələri öz mətn texnologiyası, canlandırma üsulları ilə sənətkarın yaradıcı istedadını və xalq zənginliyinə bələdliyini ortaya qoymaqla, həm də onun çatdırılma mexanizmlərini bir bütöv olaraq açıqlaya bilmək gücü və imkanları ilə spesifikləşir.

## Ədəbiyyat

1. Xəlil, Z., Əsgərli, F. (2011). Uşaq ədəbiyyatı. Bakı: ADPU, 498 s.
2. Əfəndiyev, P. (1992). Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 477 s.
3. Suxomlinski, V. A. (1979). Ürəyimi uşaqlara verirəm. Bakı: Maarif, 389 s.
4. Səhhət, A., Şaiq, A. (2006). Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 336 s.
5. Məmmədov, M., Babayev, Y., Salamoğlu, T. (1992). Pedaqoji mühit və uşaq ədəbiyyatı. Bakı: Maarif, 288 s.
6. Tahirli, Z. (1991). Böyük Vətən müharibəsi illərində Azərbaycan uşaq şeiri. Bakı: Azərnəşr, 217 s.
7. Qafarlı, R. (2013). Uşaq folklorunun janr sistemi və poetikası. Bakı: Elm və təhsil, 456 s.
8. Vəliyev, M. (1989, 26 dekabr). Uşaqların həyatını dərindən öyrənməli. «Ədəbiyyat qəzeti». Bakı.
9. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası. (1998). Bakı: Elm, 300 s.
10. Əsgərli, F. (2023). Azərbaycan uşaq ədəbiyyatı. Bakı: ADPU, 549 s.
11. Məmmədova, Ş. (2014). Mirvarid Dilbazinin uşaq yaradıcılığı. Bakı: ADPU, 197 s.
12. Məmmədova, Ş. (2016). Zahid Xəlilin uşaq əsərlərinin bədii xüsusiyyətləri. Bakı: ADPU, 215 s.
13. Namazov, Q. (2007). Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Bakı Universiteti, 444 s.
14. Mahmud, T. (1992). Yeni kitablar haqqında qeydlər. "Göyərçin" jurnalı, № 1. Bakı.

Göndərilib: 20.05.2024 Qəbul edilib: 05.07.2024

ELMİ İŞ Beynəlxalq Elmi Jurnal. 2024 / Cild: 18 Sayı: 7 / 25-35 ISSN: 2663-4619
SCIENTIFIC WORK International Scientific Journal. 2024 / Volume: 18 Issue: 7 / 25-35 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/104/25-35

**İlqar Şixverdiyev**
Bakı Türk Anadolu Liseyi
ilqarshikhverdiyev37@gmail.com
**Ceyhun Rəhimli**
Azərbaycan Texniki Universiteti
magistrant
ceyhunrahimli544@gmail.com
**Elçin Babayev**
Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu
doktorant
elchinamea@gmail.com
**Nərgiz Rəhimli**
Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu
doktorant
narciss.rehim93@gmail.com

# VƏTƏNDAŞYÖNÜMLÜ ELEKTRON DÖVLƏT ANLAYIŞI, ƏSAS PRİNSİPLƏRİ VƏ ONUN QİYMƏTLƏNDİRİLMƏSİNİN MÜASİR VƏZİYYƏTİ

**Xülasə**

Müasir dövrdə heç bir dövlət və ya müəssisənin fəaliyyətini kompüter texnologiyaları və onun imkanlarından istifadə etmədən təsəvvür etmək mümkün deyildir. Əks halda, dövlətin yürütdüyü siyasət kifayət qədər effektiv və uğurlu ola bilməz. O cümlədən dövlət xidmətlərindən istifadə zamanı da bu texnologiyalardan istifadə etmək mütləqdir. Buna görə də təqdim olunan icmalda elektron hökumətin təkamülü, əsas prinsipləri və müasir vəziyyəti hərtərəfli araşdırılaraq dövlət idarəçiliyinin transformasiyasında İnformasiya və Kommunikasiya Texnologiyalarının (İKT) əsas rolu vurğulanır. Bundan başqa, həm ölkəmizdə, həm də dünyada istifadə olunan mövcud sistemlər üzrə tədqiqatlar aparılmış, onların hər birinin müsbət və mənfi cəhətləri qeyd olunmaqla müqayisəli təhlili göstərilmişdir.

Eyni zamanda Veb 2.0 tətbiqləri ilə asanlaşdırılan artan interaktivlik, iştirak və əməkdaşlıq ilə xarakterizə olunan e-hökumət 2.0-ın meydana gəlməsi araşdırılır. Beynəlxalq e-hökumət təcrübələrinin müqayisəli təhlili Böyük Britaniya, Fransa və İspaniya kimi ölkələrin ən yaxşı nümunələr olduğunu vurğulayaraq, Ukrayna, Namibiya, Rumıniya nümunələrində elektron hökumətinin inkişafı haqqında məlumat verilmişdir. Bununla yanaşı, ölkəmizdə də elektron hökumət siyasətinin rolu, inkişafı, qarşıya qoyulan məqsədlər və aparılan işlər qeyd olunmuşdur.

***Açar sözlər:*** *informasiya cəmiyyəti, İKT, veb-sayt, e-dövlət, interaktiv xidmətlər*

**Ilgar Shikhverdiyev**
Baku Turkish Anatolian High School
ilqarshikhverdiyev37@gmail.com
**Jeyhun Rahimli**
Azerbaijan Technical University
master student
ceyhunrahimli544@gmail.com
**Elchin Babayev**
Institute of Catalysis and Inorganic Chemistry
Ph. D. student
elchinamea@gmail.com

**Nargiz Rahimli**
Institute of Catalysis and Inorganic Chemistry
Ph. D. student
narciss.rehim93@gmail.com

# Citizen-oriented electronic government concept, its main principles, and the current state of its evaluation

## Abstract

In the modern era, it is impossible to imagine the functioning of any government or institution without the use of computer technologies and their capabilities. Otherwise, the policies pursued by the government cannot be sufficiently effective and successful. Also, it is essential to use these technologies in the utilization of government services. Therefore, this summary comprehensively examines the evolution, main principles, and current state of electronic government, emphasizing the fundamental role of Information and Communication Technologies (ICT) in the transformation of governance. Additionally, research has been conducted on the existing systems used both in our country and globally, presenting a comparative analysis by noting the positive and negative aspects of each.

At the same time, the emergence of e-Government 2.0, characterized by increased interactivity, participation, and collaboration facilitated by Web 2.0 applications, is explored. A comparative analysis of international e-government experiments highlights countries like the United Kingdom, France, and Spain as the best examples, while information is provided on the development of electronic government in countries such as Ukraine, Namibia, and Romania. Furthermore, the role, development, goals, and ongoing efforts of the Electronic Government policy in our country are also mentioned.

***Keywords:*** *information society, ICT, website, e-government, interactive services*

## Giriş

### Elektron dövlət anlayışı, prinsipləri və müasir vəziyyəti

E-dövlət anlayışı tarixdə ilk dəfə 1990-cı illərin ortalarında dövlət idarəçiliyində aparılmış islahatlara İT-nin tətbiq olunması nəticəsində yaranmışdır. Qeyd etmək lazımdır ki, e-dövlət anlayışının bu dövrdə ortaya çıxmasına baxmayaraq, kompüterin idarəetmədə tətbiq edilməsi ilk kompüterin tarixinə gedib çıxır. İT-nin idarəetmədə tətbiqi dedikdə, əvvəllər dövlət strukturlarının kompüterləşməsi nəzərdə tutulurdu. Hal-hazırda istifadə olunan e-dövlət anlayışı dövlət tərəfindən əhaliyə göstərilən e-xidmətləri nəzərdə tutur. Əhalinin kommunal ödəmələri, sənədləşmə prosedurları, qeydiyyatları, seçkilərdə iştirakı, ərizə və müraciətlərinin elektron platforma üzərindən həyata keçirmələri e-xidmətlərə nümunədir (Məsiyev, 2017; Iskandarli, 2020).

İnformasiya cəmiyyətinin əsas elementlərindən olan e-dövlətin yaradılmasında başlıca prinsip internet və İnformasiya-Kommunikasiya Texnologiyalarının (İKT) imkanlarından istifadə etməklə, dövlət idarələrinin vətəndaşlara keyfiyyətli xidmət göstərilməsini təmin etməkdir. Bu zaman e-dövlət veb-saytının hazırlanmasında əsas məsələ vətəndaşlara dövlət idarələrinin göstərdikləri xidmətlərin səviyyəsini yüksəltmək, beləliklə, cəmiyyətin bütün təbəqələrinin dövlət idarəçiliyində aktiv iştirakını təmin etməkdir. Elektron dövlət mühitində səmərəli qərarların qəbulu, vətəndaşların istifadəsinin sadələşdirilməsi və dövlət təhlükəsizliyinin təmin olunması kimi məsələlər mühüm əhəmiyyət kəsb edir (Iskandarli, 2020).

Elektron hökumət daha çox səmərəlilik, daha dərin şəffaflıq, yüksək xidmət keyfiyyəti və vətəndaşların iştirakı baxımından vətəndaşlara dövlət xidmətlərinin göstərilməsinin gücləndirilməsi üçün güclü bir strategiyadır. Veb 2.0-ın yaranması Veb 2.0-ın imkanlarından interaktivlik, iştirak və əməkdaşlıq baxımından istifadə edən e-hökumət 2.0 konsepsiyasına gətirib çıxardı. Sosial media və bloqlar kimi müxtəlif Veb 2.0 proqramları kommersiya mühitində geniş şəkildə istifadə edilmişdir. Bununla belə, dövlət qurumlarında Veb 2.0 proqramlarından istifadə hələ də geridə qalır. Elektron

hökumət xidmətlərinin inkişafı, xüsusilə inkişaf etməkdə olan ölkələrin kənd və ucqar bölgələrində yerləşən vətəndaşlar arasında daha çox əhaliyə dövlət xidmətlərinin göstərilməsinin transformasiyasına imkan verir (Yap et al., 2019). İnformasiya və Kommunikasiya Texnologiyalarının (İKT) istifadəsi (Kumar & Sharma, 2017b) bir millətin demokratik sisteminin təkmilləşdirilməsinə, eləcə də insanların müxtəlif qərar qəbuletmə proseslərində iştirakının artırılmasına aparan yol olmuşdur (Sharma et el., 2021). Elektron hökumət dünya miqyasında hökumətlər tərəfindən qəbul edilən İKT-yə imkan verən belə bir təşəbbüsdür. Bu, vətəndaşlara onlayn xidmətlərə daxil olmaq, hökumət məlumatlarına, eləcə də xidmətlərinə daxil olmaq və hökumətlə bağlı qərar qəbul etmə proseslərinə geniş çeşiddə onlayn xidmətlərin çatdırılmasını və ya icazə verilməsini əhatə edir (Fan & Yang, 2015). Elektron hökumət qərarların qəbulu prosesində əhalinin daha çox iştirakını dəstəkləyir və hökumətin hərəkətlərinə ictimai nəzarəti təmin edir. Bu prosesə geniş şəkildə hökumətin veb portalları, hökumətin elektron mühiti, idarəetmənin bizneslə bağlı aspektləri, şikayətlərin göndərilməsi və qəbulu, paylaşılan və ya ictimai resurslar üçün təkliflərin verilməsi, rəqəmsal inklüzivlik, vətəndaşların iştirakı və qarşılıqlı əlaqəsi daxildir. Müxtəlif hökumətlərin onlayn portallarının yüksək keyfiyyəti dedikdə, vətəndaşların daha çox qəbulunun təmin edilməsi nəzərdə tutulur. Digər tərəfdən, bu, hökumətə əməliyyatları və idarəetmə xərclərini azaltmağa kömək edir. Bu araşdırmada e-hökumət portalının amilləri, internet portalının xidmət keyfiyyətinin qavranılması, vətəndaş məmnunluğu və istifadəçilərin niyyəti işlənib hazırlanmış və bu atributlar arasında əlaqə göstərilmişdir. Elektron hökumətin amilləri məlumatın aydınlığı və məqsədəuyğunluğu, aktuallığı və faydalılığı, məlumatın dəqiqliyi və tamlığı, sistemin təhlükəsizliyi və istifadəçilərin məxfiliyi, sistemin sabitliyi və interaktiv xidmətlərdir. Bundan əlavə, bu, elektron hökumətin onlayn xidmətlərinin keyfiyyəti ilə bağlı e-hökumət istifadəçilərinin fikirlərini başa düşməyə güclü ehtiyac olduğunu göstərir (Singh, 2022).

**Xarici və yerli elektron dövlət saytları, onların müqayisəli təhlili. E-dövlət veb-saytlarının qiymətləndirilməsində beynəlxalq təcrübənin araşdırılması**

Müxtəlif ölkələrdə elektron hökumətin tətbiqi təcrübəsinin müqayisəli təhlili mövcud informasiya sistemlərinin üstünlüklərini və çatışmazlıqlarını müəyyən etməyə, dövlət idarəçiliyinin optimallaşdırılması və səmərəliliyinin artırılması yollarını tapmağa imkan verir.

İnformasiya cəmiyyətinin formalaşması prosesləri – təqdim olunan işdə Elektron Hökumətin İnkişafı İndeksi (EHİİ) və E-İştirak İndeksinin (Eİİ) dinamikası araşdırılmış, inkişaf etmiş ölkələrin elektron hökumət sahəsində əldə etdiyi nailiyyətlər təhlil edilərək müəyyən edilmişdir ki, bu sahədə Böyük Britaniya, Fransa və İspaniya kimi aparıcı ölkələr daha çox təcrübəyə malikdir. Bu modellərin Ukraynada tətbiqi faydalı hesab edilə bilər. Müxtəlif ölkələrin nailiyyətlərinin keyfiyyət təhlili BMT-nin e-hökumət məlumat bazasına, 2003-2018-ci illər üzrə Birləşmiş Millətlər Təşkilatının Elektron Hökumət Sorğusuna, e-İdarəçiliklə bağlı araşdırma məqalələrindən alınan məlumatlara, hökumətin veb-sayt məlumatlarına, xəbər bülletenlərinə və tədqiqat nəticələrinə əsaslanır. Aparıcı ölkələrdə və Ukraynada e-hökumət təcrübəsinin tədqiqi göstərir ki, ictimai informasiya məkanının inkişafı bir çox oxşar cəhətlərə malikdir və inkişaf etməkdə olan ölkələrdə elektron hökumətin formalaşması prosesi bir çox sahələrdə inkişaf etmiş ölkələrin yolu ilə gedir, eyni zamanda öz milli xüsusiyyətlərini qoruyur. Məqalədə bu prosesin əsas ümumi komponentləri müəyyən edilərək, səmərəli dövlət idarəçiliyi sisteminin qurulması istiqamətində elektron hökumət təcrübəsinin təkmilləşdirilməsi aspektləri qeyd olunmuşdur (Shkarlet, 2020).

Tədqiqat Malayziyada e-hökumət portallarının funksiyalarını məlumatların nümayişi, onlayn xidmətlərin göstərilməsi, qarşılıqlı əlaqə vasitələri, iştirak kanalları və əməkdaşlıq imkanları baxımından təkamül perspektivi əsasında qiymətləndirir. 35 e-hökumət portalı seçilib və məzmun 6 ay ərzində təhlil edilib. Tədqiqat göstərir ki, Malayziyada elektron hökumət portalları informasiya ilə zəngindir, interaktivdir və müxtəlif növ onlayn xidmətlər təqdim edir. Bununla yanaşı, iştirak üçün kanallar, eləcə də əməkdaşlıq imkanları məhduddur. Bu tədqiqat hökumət siyasətçilərinə e-hökumət portalları vasitəsilə ictimai xidmətlərin göstərilməsi zamanı ictimai iştirakın və əməkdaşlığın gücləndirilməsi yolları haqqında fikirlər təklif edir. Hökumət siyasətçiləri elektron hökumət portallarında iştirak və əməkdaşlıq funksiyalarının təmin edilməsini nəzərə almalıdırlar. Vətəndaş-

ların hökumətin inkişaf proqramlarında iştirakını artırmaq məqsədilə vətəndaşların rəyini öyrənmək üçün onlayn sorğular keçirilməlidir. Eyni zamanda dövlət təşkilatları ictimai inkişaf layihələrində əməkdaşlıq etmək üçün müxtəlif mənbəyə, bilik və təcrübəyə malik vətəndaşlardan istifadə etməlidirlər. Beləliklə, Wiki və crowdsourcing kimi proqramlar e-hökumət portallarında yerləşdirilməlidir (Yap, 2019).

Hindistanda e-hökumət veb-portallarının effektivliyini anlamaq üçün vətəndaş mərkəzli yanaşmadan istifadə edilmişdir. Beləliklə, tədqiqatın məqsədi elektron hökumətin amillərini (məs., məlumatın aydınlığı və məqsədəuyğunluğu, aktuallığı, faydalılığı, məlumatın dəqiqliyi və tamlığı, sistemin təhlükəsizliyi, istifadəçilərin məxfiliyi, sistemin sabitliyi və interaktiv xidmətlər) və onların vətəndaş qavrayışına təsirini tapmaqdır. Modelin uyğunluğunu göstərmək üçün təsdiqləyici faktor analizi modeli tətbiq edilmiş və yekun məlumatları təhlil etmək üçün çoxlu reqressiya təhlili tətbiq edilmişdir. Nəticələr göstərdi ki, e-hökumət amilləri keyfiyyət qavrayışına, vətəndaş məmnunluğuna və istifadəçilərin elektron hökumətə olan niyyətinə müsbət təsir göstərir. Bundan əlavə, məlumatların təhlili elektron hökumətin keyfiyyət qavrayışının və vətəndaş məmnunluğunun e-hökumət amilləri ilə istifadəçilərin niyyəti arasında əlaqə olduğunu söyləmək üçün kifayət qədər sübuta malikdir. Bu araşdırma hökumətin vətəndaş məmnunluğunu, e-hökumətin keyfiyyəti baxımından vətəndaş qavrayışını və istifadəçilərin niyyətlərini artırmaq üçün öz e-hökumət portalını necə tərtib etdiyini təsvir edir. Beləliklə, nəticələr, məhdudiyyətlər və gələcək tədqiqatlar e-hökumət portalının amilləri, veb-portalın xidmət keyfiyyətinin qəbulu, vətəndaş məmnunluğu və istifadəçilərin niyyəti işlənib hazırlanmış və bu atributlar arasında əlaqə göstərilmişdir. Tədqiqat zamanı bir sıra problemlərin olması qaçınılmazdır. Birincisi odur ki, bu tədqiqatda vasitəçi seçimi zamanı dəyişən yalnız yaranan vətəndaş məmnunluğu və qavrayışı ilə əlaqədardır ki, gələcək tədqiqatlarda digər potensial vasitəçi dəyişənlər də nəzərə alınsın. İkincisi, vətəndaşların demoqrafik göstəriciləri qərarlara əhəmiyyətli dərəcədə təsir etsə də, burada bu xüsusiyyətlərdən daha çox qavrayış və məmnuniyyətə diqqət yetirilir. Bu, əlavə tədqiqatlara ölkələr üzrə sorğuları genişləndirməklə e-hökumətdəki fərqləri təhlil etməyə imkan verir (Singh, 2022).

Qeyd edək ki, inkişaf etmiş ölkələr ilə inkişaf etməkdə olan ölkələrdə e-dövlətin inkişafına yanaşmalar fərqli ola bilər. İnkişaf etmiş ölkələrdə hər bir dövlət orqanı özünün İT layihələrini və kompüter data mərkəzini tamamlamışdır. Belə ki, bu ölkələrdə e-dövlətin hissələri artıq bir çox dövlət müəssisələrində mövcuddur. E-dövlətin hər bir hissəsinə nəzər saldıqda, informasiya və bilik sistemlərinin səmərəli fəaliyyət göstərdiyini görmək olur. Burada əsas problem bu sistemlərin birləşdirilməsidir. E-dövlət yanaşmasını nəzərə alsaq, bu bütün mövcud informasiya və bilik sistemlərinin bir-birilə birləşdirilməsi yolu ilə əldə oluna bilər (Mutuku & Colaco, 2012). Yuxarıda qeyd olunduğu kimi, inkişaf etməkdə olan ölkələrdə e-dövlət inkişaf etmiş ölkələrdən fərqlidir, çünki informasiya və bilik sistemləri, informasiya texnologiyaları və infrastrukturu bu ölkələrdə yaxşı inkişaf etməmişdir. Ona görə də kompüter və informasiya texnologiyalarının ümumi standartları e-dövlət layihəsinin başlanğıc mərhələsində həll olunmalıdır. Dövlətin əsas vəzifəsi bütün dövlət orqanlarının e-dövlət konsepsiyasını, missiyasını, məqsədini, vəzifələrini, strategiya və taktikasını müəyyən etmək, hər bir orqanın eyni e-dövlət mənzərəsinə malik olduğuna əmin olmaqdır (Aliguliyev & Niftaliyeva, 2017). Mərkəzi planlaşdırma nəticəsində e-dövlət layihələrinin həyata keçirilməsi zamanı aydın mənzərə yaratmaq mümkündür. Bunun nəticəsində hər bir dövlət orqanı öz resurslarını "bir pəncərə" prinsipi əsasında mübadilə edə bilər. Bu kifayət qədər resursu olmayan ölkələr üçün nəzərdə tutulub və mərkəzləşdirilmiş model adlanır. Bu model bir çox inkişaf etməkdə olan ölkələrdə daha münasibdir. Hazırda Azərbaycanda paylanmış modelin tətbiq olunduğu sahələr var və gələcəkdə bütövlükdə paylanmış modelə keçid nəzərdə tutulur.

Bu tədqiqat 2019 və 2022-ci illərdə, COVID-19 epidemiyasından əvvəl və sonra Rumıniyanın bütün şəhərlərinin veb-saytlarının keyfiyyətini ölçmək məqsədi daşıyır. Rəsmi veb-saytlar elektron idarəetmənin əsas aləti olduğundan, Rumıniya şəhərlərinin veb-saytlarının keyfiyyətindəki dəyişikliklər Rumıniyada şəhər e-idarəçiliyinin inkişafındakı dəyişiklikləri əks etdirir. Rumıniyada şəhər elektron idarəçiliyi ilə bağlı bu araşdırmadan bəzi nəticələr çıxarmaq olar. Nəticələr həmçinin tədqiqat üçün yeni istiqamətlər təklif edir. Edilən dörd fərziyyədən biri qəbul edildi, lakin digər üçü

üçün cavab o qədər də aydın deyil. Ümumi performans baxımından orta balın xeyli yüksəldiyi (23,11-dən 27,57-yə) müşahidə olunub. Bununla belə, mümkün olan maksimum balın 100 olduğunu nəzərə alsaq, artım azdır. E-idarəçiliyin üç ölçüsündə tərəqqi görmək olar. Ən əhəmiyyətli irəliləyişlər şəxsi məlumatların və xidmətlərin mühafizəsi və qorunması sahəsində əldə edilmişdir (1.07-dən 3.64-ə qədər). İstifadə qabiliyyəti daha az dərəcədə inkişaf etmişdir (9,82-dən 10,85-ə qədər). Məzmun praktiki olaraq sabit qaldı (4,46-dan 4,55-ə qədər), lakin rəqəmsal iştirak statistik cəhətdən vacib olmasa da, əhəmiyyətli dərəcədə azaldı (2,12-dən 1,79-a) (11).

Afrika qitəsində vətəndaş mərkəzli nöqteyi-nəzərdən e-hökumət araşdırmalarının çatışmazlığı var. Əsas diqqət hökumətlərin səmərəli və effektiv olmaqla, xidmətlərin göstərilməsini necə təkmilləşdirə biləcəyinə yönəldilib. Ehtimal olunur ki, e-hökumət tədqiqatının diqqət mərkəzində özəl sektor əməliyyatlarını dövlət sektoruna idxal etməyi hədəfləyən Yeni Dövlət İdarəçiliyi nəzəriyyəsindən ilhamlandığı görünür. Bu yanaşmadan fayda əldə etmək mümkün olsa da, hökumətlər vətəndaşlar arasında ictimai dəyər yaratmaq rolunu tamamilə yerinə yetirə bilmirlər. Bu tədqiqat Namibiya üçün uyğun olan vətəndaş mərkəzli e-hökumət üçün bir model təklif edir. Tədqiqat vətəndaş mərkəzli e-hökumət üçün nəzərdə tutulur. O, e-hökumət vasitəsilə ictimai dəyər yaratmaq üçün öz baxışını əsaslandırmaq üçün ictimai islahat nəzəriyyələrindən istifadə edir. Vətəndaş mərkəzli elektron hökumətlə bağlı ədəbiyyata baxış keçirilib. Ədəbiyyatdan istifadə edərək, tədqiqat Namibiya üçün uyğun ola biləcək vətəndaş mərkəzli e-hökumət modeli təklif etdi. Tədqiqat iddia edir ki, e-hökumətin vətəndaş mərkəzliliyinin miqyasını və ya effektivliyini qiymətləndirmək vacib olsa da, e-hökumətin layihələndirilməsi və tətbiqi zamanı nəzərə alınmalı olan mühüm amillərlə bağlı hökumətə göstərişlərin verilməsi də vacibdir. Ədəbiyyat araşdırması göstərdi ki, hökumətlərin e-hökumət tətbiqləri çox vaxt vətəndaşların istifadə etdiyi texnologiyalara uyğunlaşdırılmır. Müvafiq olaraq, təklif olunan model e-hökumətin layihələndirilməsi, tətbiqi və qiymətləndirilməsində mühüm əhəmiyyət kəsb edən amillərin konturunu verir. Tədqiqat e-hökumət platformasının vətəndaş mərkəzli olmasının nə dərəcədə qiymətləndirilməsi zərurətini irəli sürən ədəbiyyatın hazırkı vəziyyəti ilə razılaşır (Fröhlich & Peters, 2018).

Rəqəmsal transformasiya uzunmüddətli perspektivdə hökumətin idarə edilməsində və hökumət siyasətində yeni tendensiyadır. Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr həyat standartlarını və vətəndaşların həyat keyfiyyətini yaxşılaşdırmaq üçün rəqəmsallaşmaya və texnologiyaya sərmayə qoyurlar. Elektron hökumət portalları vasitəsilə siyasətçilər vətəndaşların həyat keyfiyyətini yaxşılaşdıra və vətəndaşlarına nəzarətdə əhəmiyyətli üstünlüyə malik ola bilərlər. Başlıca məqsəd kimi, bu tədqiqat vətəndaş nöqteyi-nəzərindən elektron hökumət portalının səmərəli idarə edilməsinə nail olmaq üçün əsas amilləri təqdim edir. Türkiyə nümunəsindən əldə edilən nəticələrə görə, vətəndaş nöqteyi-nəzərindən e-hökumət portalının idarə edilməsinin səmərəliliyini artıran əsas amilləri aşağıdakı kimi ümumiləşdirmək olar:

(1) Rəqəmsal platformalar: Uzunmüddətli perspektivdə mobil tətbiqlər və mobil alətlər e-dövlətə ehtiyac duyur. Beləliklə, siyasətçilər alternativ rəqəmsal platformalardan birlikdə istifadə etməlidirlər. Elektron hökumət portalı mobil sistemləri və mobil alətləri işə salmaq üçün tərtib edilməlidir. (2) Özündən istifadə variantları: Vətəndaşların təhlükəsizliyini və məxfiliyini təmin etmək üçün elektron hökumət portalları öz-özünə istifadə sistemlərini təmin etmək üçün dizayn edilməlidir. (3) Giriş: Təhlükəsizlik və giriş məsələsi birlikdə nəzərdən keçirilməlidir. Elektron hökumət portallarına daxil olmaq üçün sistem alternativ qorunan variantları aktivləşdirməlidir. (4) Axtarış variantları: İstifadəsi asan seçim üçün xidmət kateqoriyalarını və təsnifatını müəyyən etmək vacibdir. (5) İstifadəçi seçimləri və qiymətləndirməsi: İstifadəçilərin tərifi vacibdir. Vətəndaşlar bilməlidirlər ki, elektron hökumət portalından necə istifadə edə bilərlər. Məsələn, rəhbərlik vətəndaşların və əcnəbilərin elektron hökumət portalından istifadə barədə məlumatlı olmasını müəyyən etməlidir. Bundan əlavə, bələdçi və məlumatlar əlil vətəndaşların elektron hökumət portalından səmərəli istifadəsi üçün şərait yaratmalıdır. Başqa sözlə, istifadəçi dostu dizayn edilmiş rəqəmsal platformaların və əlillərə uyğun sistemlərin idarə edilməsi vacibdir. (6) 24/7 xidmət: Sistem vətəndaşların 24/7 ehtiyaclarını ödəmək üçün hazırlanmalıdır. (7) Sosial media vasitələri və kommunikasiya: Sistem yeni başlayanlar üçün məlumatlara açıq çıxış imkanı verməklə vətəndaşlar üçün

əlçatan olmalıdır. Ünsiyyət üçün vətəndaşlara daha çox məlumat verərkən sosial media vasitələrindən istifadə etmələri tövsiyə olunur. (8) Rəqəmsal dövlət xidmətlərinin müxtəlifliyi: Elektron hökumət portalı sistemi COVID-19 pandemiyası kimi qeyri-adi dövrlərə əsaslanan yeni rəqəmsal xidmətləri və ən müasir xidmətləri qəbul etmək üçün tərtib edilməlidir. Bu araşdırma iddia edir ki, onlayn dövlət xidmətləri uzunmüddətli perspektivdə üz-üzə dövlət xidmətlərindən daha əlçatan və əlverişlidir. Ölkədə artan əhali üçün müvafiq və tam razılaşdırılmış dövlət xidmətlərini təmin etmək üçün onlayn platformalar və tətbiqlər əsas vasitələrdir (Yildirim & Bostanji, 2021).

**Faydalı xarici e-gov saytları**

Araşdırmalar və müxtəlif mənbələrdən əldə etdiyimiz məlumatlara əsasən, vətəndaşyönümlülük baxımından ən yaxşı elektron dövlət veb-saytları bunlardır:

1. Estonia e-Residency (Estoniya). 2. Singapur SingPass (Sinqapur). 3. Norway Digital Services (Norveç). 4. Canada My Canada Account (Kanada). 5. United Kingdom Gov.uk (Birləşmiş Krallıq). 6. Ghana e-Services (Qana).

“Asiya-Sakit okean” onlayn kommunikasiya mərkəzi hesab edilən "FutureGov" dünyanın ən yaxşı dizayna malik olan 8 milli e-hökumət portalı haqqında "Design Secrets of the World`s Best e-Government Web-Sites" (Dünyada ən yaxşı e-hökumət portalların dizayn sirləri) kitabında geniş şəkildə məlumat verərək bu portalların üstün təcrübələrini nümunə göstərmişdir. Həmin veb-portallar təcrübilik, sadəlik, sürətlilik və istifadəçinin asanlıqla adaptasiya üzrə dünyanın ən yaxşı portallarından sayılır.

"FutureGov" mərkəzinin tədqiqatlarına əsasən, aşağıda qeyd edilmiş 8 portal bu baxımdan fərqləndirilir:

